*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 29 yanvar 2020-ci il | № 7 (2425) | Qiyməti 30 qəpik


*Ön xətdən reportaj*

## Torpaqlarımız bizi gözləyir!



Yenə də düşmənlə təmas xəttində yerləşən bölmələrdən birindəyik. Hərbi hissədə yaradılan şərait, səliqə-sahman, şəxsi heyətin isti qış geyimi ilə təminatı ordumuzun inkişafından xəbər verir. Burada ləngiməyərək, səngərə üz tuturuq. Bizi qarşılayan kapitan Fuad Rəhimov ordu quruculuğundan, şəxsi heyətin peşəkarlığından, döyüş qabiliyyətindən söz açır, ordunun inkişafının daim ölkə rəhbərliyinin diqqət mərkəzində olduğunu bildirir. "Ali Baş Komandan cənab İlham Əliyevin cəbhə bölgəsinə səfərləri, ölkə rəhbərliyinin ordumuza inamının və etimadının bariz nümunəsidir. Digər tərəfdən isə belə səfərlər dövlətimizin hərb sahəsinə nə qədər önəm verdiyini göstərir. Mütəmadi olaraq səngərdə yuxarı komandanlığı görən şəxsi heyətin döyüş ruhu yüksəlir, qələbəyə olan inam hissi artır. Səngərdə dayanan əsgər Vətən sevgisinin ülvi hiss olduğunu anlayır, onun müdafiəsi üçün əlindən gələni əsirgəmir. Keçirilən genişmiqyaslı təlimlər də bunu dünya ictimaiyyətinə aydın nümayiş etdirir. Biz də komandir olaraq, üzərimizə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Hər bir Azərbaycan vətəndaşının bir arzusu var - Ali Baş Komandanın döyüş əmri ilə işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etmək."

Döyüş mövqeyində bizi qarşılayan gizir Əzizağa Kazımov gün ərzində heç bir hadisənin baş vermədiyini diqqətə çatdırır. O, döyüş hazırlığı planına uyğun olaraq, döyüş növbətçiliyinin tərtib edildiyini, şəxsi heyətin istirahətinin təmin olunduğunu qeyd edir. Ərazi ilə bizi tanış edən hərbi qulluqçunun qarşı tərəfə - dədə-baba torpaqlarımıza baxaraq köks ötürməsi nəzərimizi cəlb edir. "Gördüyünüz o yerlər bizim doğma el-obamızdır. Əgər bu gün o yerlərə ayaq basa bilmiriksə, o demək deyil ki, oralar bizim deyil. Tarixə nəzər salsaq görərik ki, nankor qonşumuz xalqımızın sülhsevərliyindən namərdcəsinə istifadə edib. Ermənilər bir zaman ona qucaq açanları "arxadan bıçaqlayıb". Düşmən öz çirkin əməlləri ilə bütün dünyaya erməni faşizminin nəyə qadir olduğunu nümayiş etdirib. Hər kəsə məlumdur ki, Azərbaycan Ordusu güclü ordudur. Ümummilli Liderimizin siyasi kursunun layiqli davamçısı Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmiz dünya arenasında öz layiqli yerini tutub. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəri bunun bariz nümunəsidir. Bütün xalq işğalda olan torpaqlarımızın azadlığı uğrunda birləşib, döyüş əmrini gözləyir. İnanırıq ki, Azərbaycan əsgəri xalqımızın ordusuna olan güvənini tezliklə doğruldacaq. Keçmişdə olduğu kimi yenə də tarixi torpaqlarımızda toy-büsat sədaları eşidiləcək!"

Əsgər yataqxanasında olan əsgərlərlə də söhbət etmək qərarına gəlirik. Onların hər birinin gözlərində işğalda olan torpaqlarımızın həsrəti sezilir, dillərində Vətənimiz uğrunda şəhid olanların qisasının alınacağı kəlməsi eşidilir. Hər biri döyüşlərdə payının olmasını istəyir.

- Düşmənlə təmas xəttində xidmət etdiyimə görə fəxr edirəm, - deyə əsgər Adıgözəl Niftinov söhbətə başlayır. - Ön xətdə xidmət etməyin özü böyük məktəbdir. Burada hər şeyi daha yaxşı dərk edirsən. Stasionar hərbi hissədən sonra bura mənə həm maraqlı, həm də çətin gəlirdi. Hesab edirdim ki, bura uyğunlaşmağım çətin olacaq. Düzdür, burada xidmət ilə bağlı komandirlərimiz bizi məlumatlandırmışdı. Buna baxmayaraq, hər şey ilk vaxtlar çətin olur. Bir müddətdən sonra səngər bizə evimiz qədər əziz və doğma oldu. İndi elə bilirəm ki, burada böyüyüb, boya-başa çatmışam. Komandirlərimiz bizə ön xətdə davranış qaydalarını, lazımi siqnalları başa saldılar. Biz də üzərimizə düşən vəzifəni yerinə yetirmək üçün əlimizdən gələni edirik. Vətənin keşiyində dayananda keçirdiyim hissləri heç nə ilə dəyişmərəm. Döyüş növbətçiliyi zamanı yanında silahından və əsgər yoldaşından başqa heç kim olmur. Həmin an başa düşürsən ki, döyüş meydanında yalnız şəxsi hazırlığına və silah yoldaşına güvənə bilərsən. Həm də komandirlərimizin əmrlərini dəqiq yerinə yetirməliyik. Danılmazdır ki, komandirin nə qədər savadlı olsa da, savadsız əsgər döyüşü məğlubiyyətə düçar edə bilər. Bu səbəbdən keçirilən dərslərdə məşğələləri dərindən mənimsəyirik. Xüsusilə atəş hazırlığımıza diqqət yetiririk. Təlim atış çalışmaları zamanı cansız hədəfi düşmənimiz təsəvvür edirik. Düşmən tərəfindən ani basqın olarsa, atəş sektorundan hər erməni əsgərinə bir güllə sərf etməliyik. Qoy düşmən bilsin ki, qarşısında Vətən müdafiəçisi, peşəkar əsgərlər dayanıblar. O əsgərlər ki, düşmənin ehtiyatsız davranışlarını ölümlə mükafatlandıracaq.

(Ardı 2-ci səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Yeni tədris dövrü ərəfəsində qoşunların hazırlığı yoxlanılır

*Müdafiə nazirinin əmrinə əsasən, Azərbaycan Ordusunun qoşun növləri, hərbi birlik, birləşmə və hissələrinin yeni tədris dövrünə hazırlığını yoxlamaq məqsədilə kompleks tədbirlərə başlanılıb.*



Yoxlamanın əsas məqsədi hazırlıq dövrü üçün tədbirlər planının icrasının effektivliyini müəyyən etməkdir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bir həftə ərzində qərargahların qoşunların idarəedilməsi üzrə fəaliyyəti, döyüş və xüsusi texnikanın imkanları, qoşun xidmətinin aparılması, hərbi hissələrin tədris-maddi bazası, o cümlədən poliqonlar, təlim mərkəzləri, tankodromlar və digər hərbi obyektlərin yeni tədris dövrünə hazırlığı yoxlanılacaq. Bundan əlavə rəhbəredici və digər normativ sənədlərin tələblərinin icrası, tədris vəsaitlərinin mövcudluğu və tətbiqi, həmçinin döyüşə hazırlıq vəziyyəti yoxlanılacaq və bir sıra digər tədbirlər yerinə yetiriləcək.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

**28 yanvar 2020-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Kəngərli, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Naxçıvan Qarnizonu qoşunlarında toplantılar davam edir



Naxçıvan Qarnizonu qoşunlarında müxtəlif ixtisaslar üzrə keçirilən toplantılar davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, yeni tədris ilinə hazırlıq planına uyğun olaraq bölük, batareya komandirləri və müavinləri ilə keçirilən toplantılarda zabitlərin döyüş zamanı tabelikdə olan bölmələri idarəetmə bacarıqları və ixtisas hazırlıqları yoxlanılır.

Praktiki məşqlərdə taktiki-sıra və sıra hazırlığının təşkili, hazırlanması və keçirilməsi metodikası nümayiş etdirilir.

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən dərslər zamanı hüquq hazırlığı və mənəvi-psixoloji hazırlıqdan müxtəlif mövzularda mühazirələr oxunur.

Hazırda digər ixtisaslı hərbi qulluqçuların cəlb edildiyi toplantılar davam edir.

## Moskvada növbəti erməni təxribatının qarşısı alınıb

Soydaşlarımız Rusiya Federasiyası ərazisində millətlərarası münaqişəni qızışdırmaq və separatçılıq ideyalarını təbliğ etmək məqsədilə çəkilmiş erməni filminin Moskvada nümayişinin təxirə salınmasına nail olublar.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 26-da Rusiya paytaxtının "Pobeda" kinoteatrında nümayişi nəzərdə tutulmuş "Aran - mistik ölkə" adlı bədii-sənədli filmin təqdimatı təxirə salınıb. Filmdə Azərbaycanın əzəli torpaqları olan Dağlıq Qarabağ və ona bitişik yeddi rayonun "tarixi Ermənistan" torpağı olduğu iddia edilib.

Filmin nümayişinə kəskin etiraz bildirən Moskva Azərbaycanlıları İcmasının sədri Şamil Tağıyev şəhər hökumətinin mədəniyyət departamentinə müraciət edib. Erməni separatçılarının məkrli niyyətlərini diqqətə çatdıran icma sədri filmin göstərilməsindən imtina etməyə çağırıb və xəbərdarlıq edib ki, əks halda, Rusiyanın Xarici İşlər Nazirliyinə və müvafiq dövlət orqanlarına müraciət göndəriləcək.

Qeyd edək ki, bundan əvvəl Qazaxıstanda erməni təxribatının qarşısı alınmışdı. Azərbaycanın Qazaxıstandakı səfirliyinin etirazı nəticəsində qardaş ölkədə yalançı faktlara əsaslanan "Qərbi Ermənistan, itirilmiş vətən" adlı erməni filminin nümayişindən imtina edilib.

# Torpaqlarımız bizi gözləyir!

(Əvvəli 1-ci səhifədə)

Əsgər Saleh Babazadəyə "Hərbi xidmət sənə nə öyrədib?" sualı ilə müraciət edirəm. Vətənimizin müdafiəsində mətinliklə dayanan əsgər Saleh Babazadə bildirir: "Hər bir vətənpərvər gənc Vətəni qarşısında mənəvi borcunu yerinə yetirməlidir. Əsgəri xidmətdə sevdiklərimizdən uzaqda oluruq. Yalnız Vətənimizin keşiyində dayanmağımız bizə təsəlli verir. Vətəni qorumaqdan şərəfli nə ola bilər? Vətənimizin, xalqımızın azadlığı uğrunda düşmənə qan uddurmağa hər an hazırıq. Komandirlərimiz əsgərlərin fərdi hazırlıqlarına xüsusi diqqət yetirirlər. Nəzəri biliklərimizi praktiki məşğələlərin keçirilməsi ilə möhkəmləndirir, dərinləşdiririk. Biz də dərslərdə öyrədilənləri mənimsəyir, mütəmadi olaraq təkrarlayırıq. Bunun üçün hərbi hissədə hər cür şərait yaradılıb. Səhər və axşam idman etməyimiz üçün şəhərciklər, asudə vaxtımızdan səmərəli istifadə etməyimiz üçün ideoloji otaqlar var. Bir sözlə, hərtərəfli diqqət və qayğı ilə əhatə olunmuşuq. İnanırıq ki, tezliklə Ali Baş Komandan cənab İlham Əliyevin döyüş əmri ilə xalqımıza Qələbə sevincini yaşadacağıq."

Hərbi hissədə şəxsi heyətin asudə vaxtından danışan əsgər Tacir Baxşəliyev bildirir ki, xidmət müddəti ərzində həyata başqa bucaq altından baxmağı öyrənib. "Vətənimizin müdafiəsində keçən günlərin dəyəri böyükdür. Burada günün nizam qaydasına uyğun olaraq idmanla məşğul olur, vaxtlı-vaxtında qidalanır, asudə vaxtımızdan səmərəli istifadə edir və ən əsası məşğələlərdə Vətənimizin hərb tarixini öyrənirik. Asudə vaxtlarımızda kinofilmləri seyr edir, Heydər Əliyev mərkəzini, parkları gəzirik. Ümummilli Liderimizin həyat və fəaliyyəti, xalqımızın azadlığı uğrunda canından keçən oğullarımız haqqında geniş məlumat əldə edirik. Mütəmadi olaraq bölmələr arasında müxtəlif yarışlar keçirilir. Sonuncu dəfə bizim bölmənin şəxsi heyəti futbol yarışında birinci oldu. Yarışın qalibi olmaq çox sevindirici və qürurvericidir. Dərslərdə döyüş, asudə vaxtlarda isə mənəvi-psixoloji hazırlığımızı artırırıq. Bütün bunlar düşmənə gücümüzü sübut edəcək döyüşçü kimi formalaşmağımızda və cəmiyyətimizə layiqli vətəndaş kimi yetişməyimizdə müstəsna rol oynayır. Biz də yaradılmış şəraitdən səmərəli istifadə edirik ki, döyüş meydanında komandirlərimizin etimadını doğruldaq."

- Ürəyi Vətən eşqi ilə döyünən oğulların sıralarında xidmət etməyimlə qürurlanıram, - deyə əsgər Kamal Fərəcov söhbətə qoşulur. - Uşaq vaxtlarından ermənilərin Xocalıda törətdikləri vəhşilikləri əks etdirən video-foto materiallara baxırdım. Hər dəfə düşmənə olan nifrətim daha da artırdı. Hərbi formanı geyindiyim gün sevincim yerə-göyə sığmırdı. İlk sıra addımları nizami ordunun əsgəri olduğumuzu göstərdi. Mütəmadi olaraq döyüş və mənəvi-psixoloji hazırlığımızı artırırıq. Formalaşmağımızda keçirilən dərslərin rolu böyükdür. Bu gün əminliklə deyə bilərik ki, Böyük Qələbə uğrunda gedəcək döyüşlərə



hazırıq. Hər bir Azərbaycan əsgərinin səbirsizliklə gözlədiyi o gün uzaqda deyil. Xalqımızın başına açılan oyunların qisası tezliklə alınacaq. Həmin döyüşlərdə mən də olacam. Əsgəri xidmətim bitsə də, yenidən ordu sıralarına qayıtmaq istəyirəm. Vətənimizin işğal altında olan torpaqlarını son qarışına qədər azad edəcəyik. Ali Baş Komandan İlham Əliyevin dediyi kimi: "Əgər erməni əsgəri ölmək istəmirsə, rədd olsun Azərbaycan torpaqlarından!"

**Baş leytenant
Ruslan HƏSƏNZADƏ,
"Azərbaycan Ordusu",
fotolar
C.CƏFƏROVUNDUR**

# Azərbaycan Ordusunda Həzi Aslanovun 110 illiyinə həsr olunan silsilə tədbirlər keçirilir

*Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr olunan silsilə tədbirlər keçirildi. Tədbirlərdə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Dövlət himni səsləndirildi.*




Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr olunmuş anım tədbiri keçirildi.

Tədbiri açan polkovnik Emin Səfərov bildirdi ki, H.Aslanovun döyüş yolunun öyrənilməsi işğal altında olan torpaqlarımızın azad olunması baxımından da önəmlidir. Zabit dedi ki, qəhrəmanımız Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdəndir. Azərbaycan xalqının igid övladının, Böyük Vətən müharibəsi qəhrəmanının adı ən istedadlı sərkərdələrdən biri kimi hərb tariximizə qızıl hərflərlə yazılıb.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mədəni-bədii iş üzrə təlimatçısı Gülxar Məmmədova çıxışında qeyd etdi ki, Azərbaycan xalqı bu gün də öz keçmişi, xüsusilə Böyük Vətən müharibəsində iştirakı ilə fəxr edir. Gülxar xanım gənclərə ölkəmizin müstəqilliyi uğrunda canlarından keçmiş milli qəhrəmanların göstərdiyi şücaətlərdən nümunə götürməyi tövsiyə etdi. “Torpaqlarımızın işğal altında olduğu bir dövrdə qüdrətli Azərbaycan Ordusu hər an düşməni qovub çıxarmağa hazırdır. Məlum Aprel döyüşləri zamanı biz bir daha bunun şahidi olduq. İnanırıq ki, tez bir zamanda Ali Baş Komandanın rəhbərliyi altında zəfər bayramını qeyd edəcəyik.”

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin rəngarəng musiqi proqramı ilə sona çatdı.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Azərbaycan Hərb Tarixi Muzeyində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr olunmuş "Cəsur döyüşçü, görkəmli sərkərdə Həzi Aslanov" adlı anım tədbiri keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin, Hərbi Akademiyanın, hərbi hissələrin, veteran təşkilatlarının, şəhər muzeylərinin, ictimai təşkilatların və digər dövlət qurumlarının nümayəndələri iştirak etdilər.

Hərb Tarixi muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə iki dəfə Sovet İttifaqı Qəhrəmanının mənalı həyat və şərəfli döyüş yolundan danışaraq Həzi Aslanovun Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biri olduğunu qeyd etdi. Bildirildi ki, xalqımızın igid övladı, Böyük Vətən müharibəsinin iştirakçılarından olan Həzi Aslanovun qəhrəmanlıqla dolu həyat yolu hər bir vətəndaşımız üçün nümunədir. "Faşizm üzərində tarixi Qələbənin qazanılmasında göstərdiyi qəhrəmanlıqları ilə yaddaşlarda iz qoyan, Vətən torpaqlarının azadlığı uğrunda son damla qanını belə əsirgəməyərək düşmənlə mübarizə aparan bu qəhrəman həmyerlimiz xalqımız tərəfindən hər zaman qürur və hörmət hissi ilə yad ediləcək, onun adı və şərəfli döyüş yolu gələcək nəsillər üçün hər zaman əsl vətənpərvərlik nümunəsi olacaq".

AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi Vidadi Umudlu isə bildirdi ki, Həzi Aslanov Azərbaycan xalqının yetirdiyi ən böyük sərkərdələrdən biridir. “1941-ci ilin iyununda müharibənin od-alovları içərisinə atılan qəhrəman həmyerlimizin komandanlıq etdiyi tank briqadası Donbas, Moskva, Xarkov, Stalinqrad, Taqanroq, Kursk və digər ərazilərin faşizmdən azad olunmasında fəal iştirak edib. Həzi Aslanov 34 yaşında Sovet İttifaqı Qəhrəmanı adına və general rütbəsinə layiq görülüb. Onun adı qəhrəmanlıq simvoluna çevrilib.”

Çıxışçılar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Müdafiə Nazirliyi rəhbərliyinin qəhrəmana və onun ailə üzvlərinə göstərdiyi diqqət və qayğıdan da söz açdılar.

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri hərbi vətənpərvərlik mövzusunda mahnılar səsləndirdilər.

Anım tədbiri hərbi xadimin həyatı və hərbi fəaliyyətindən bəhs edən sənədli filmin və sərginin nümayişi ilə başa çatdı.

**Leytenant**
**Oruc MUSTAFAYEV,**
**"Azərbaycan Ordusu"**





"N" hərbi hissəsində də Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun anadan olmasının 110 illiyinə həsr olunan tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan polkovnik-leytenant Zaur Həmidov vurğuladı ki, əfsanəvi komandir qəhrəmanlığı ilə xalqımızın igid oğullarının sırasında xüsusi yer tutur. Mahir sərkərdə döyüşlərdə nümayiş etdirdiyi şücaəti və idarəçiliyi ilə hərb tarixində yeni parlaq səhifə açıb. Qəhrəmanın keçdiyi döyüş yolu hər bir şəxs, hər bir Azərbaycan vətəndaşı üçün nümunədir. O, bildirdi ki, xalqımız Vətənimizin azadlığı uğrunda şəhidlik zirvəsinə yüksələn oğullarımızı heç vaxt unutmur. Hər zaman onların ruhunu uca tutur, böyük fəxrlə yad edir. Dədə-babalarımızın əmanət etdiyi Vətən torpaqlarını düşməndən qorumaq biz hərbçilərin qarşısında dayanan başlıca vəzifələrdəndir. Zabit onu da qeyd etdi ki, Həzi Aslanov kimi oğullarımızın döyüş yolunun öyrənilməsi gənclərimizin vətənpərvər ruhda formalaşmasında əhəmiyyəti böyükdür. Mənəvi cəhətdən sağlam gənc sabahın qalib əsgəridir.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mədəni-bədii iş üzrə təlimatçısı Gülxar Məmmədova Həzi Aslanovun mənalı həyat və şərəfli döyüş yolundan danışaraq qeyd etdi ki, o, xalqımızın yetirdiyi ən böyük sərkərdələrdən biridir. "İkinci Dünya müharibəsinin gedişində strateji üstünlüklərə malik olan "dəmir atlar" günümüzün ən təsirli döyüş vasitələrindəndir. Onu da qeyd etmək lazımdır ki, bu cür texnikanı idarə etmək böyük məharət tələb edir. General-mayor Həzi Aslanov tankın imkanlarını hesablamaqla çətin tapşırıqların öhdəsindən gələrək böyük uğurlara imza atıb. Qeyd etmək lazımdır ki, Azərbaycan oğullarının Böyük Vətən müharibəsi illərində göstərdiyi igidliklərin, qəhrəmanlıqların üzə çıxarılmasında, əbədiləşdirilməsində və gələcək nəsillərə çatdırılmasında Heydər Əliyevin rolu danılmazdır. Ulu Öndər yalnız Həzi Aslanovun deyil, ümumən Böyük Vətən və İkinci Dünya müharibələri cəbhələrində igidlik göstərən və Azərbaycanın qəhrəmanlıq ənənələrini davam etdirən şəxslərin hamısının təcrübəsindən və mübarizliyindən müstəqil Azərbaycan Ordusunun qurulmasında və möhkəmləndirilməsində istifadə edilməsini əhəmiyyətli sayırdı. Bu ənənə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir."

Tədbir Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin rəngarəng musiqi proqramı ilə sona çatdı.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**

# Gəncə qarnizonunda Həzi Aslanovun 110 illiyinə həsr olunan kinofilmlər festivalı başlanıb



*"Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2019-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzində iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun xatirəsinə həsr olunan bədii və sənədli kinofilmlər həftəsinə start verilib.*

Müdafiə Nazirliyinin rəsmilərinin, qarnizondakı hərbi hissələrin şəxsi heyətinin, müharibə veteranlarının və qəhrəmanın ailə üzvlərinin iştirak etdikləri tədbirdə yubiley təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Prezident Sərəncamının əhəmiyyətindən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə hər an hazır olan Azərbaycan Ordusunun bütün şəxsi heyətinin, eləcə də gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rolundan danışıb.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin, general H.Aslanovun timsalında faşizmə qarşı Böyük Vətən müharibəsində mərdliklə vuruşaraq həlak olan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Qeyd edilib ki, qəhrəmanlar heç vaxt ölmürlər, onlar xatirələrdə, ürəklərdə, o cümlədən sənət əsərlərində özlərinə əbədiyaşarlıq tapır və ölümlərindən sonra da gələcək qəhrəmanlıqların yaranması üçün örnək olurlar.

Nəzərə çatdırılıb ki, həftə ərzində müxtəlif illərdə Həzi Aslanov haqqında çəkilmiş 30-dan çox sənədli və bədii film nümayiş etdiriləcək, aktyor, rejissor, operator, ssenari müəllifi və digər yaradıcı heyət üzvləri ilə görüşlər və filmlərin müzakirələri keçiriləcək.

Böyük Vətən müharibəsi illərində Həzi Aslanov ilə Belarus cəbhəsində bir yerdə vuruşan 98 yaşlı müharibə veteranı Tofiq Hüseynov, Gəncə şəhəri Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan zabit Yusif Məmmədov çıxış edərək Həzi Aslanovun adının əbədiləşdirilməsi, unudulmaz sərkərdənin xatirəsinin həmişə əziz tutulması, keçdiyi hərbi şöhrət yolunun təbliğində ulu öndər Heydər Əliyevin tarixi xidmətlərini qeyd ediblər. Bu ənənənin Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinə görə dövlətimizin başçısına minnətdarlıqlarını çatdırıblar.

Gəncə Dövlət Dram Teatrının aktyoru, atası Böyük Vətən müharibəsindən qayıtmayan xalq artisti Məmmədəli Balayev Həzi Aslanova həsr olunan vətənpərvərlik şeirlərindən nümunələr söyləyib. Azərbaycan Ordusunun sıralarında Həzi kimi oğulların bu gün yüzlərlə, minlərlə olduğunu, xalqımızın bundan böyük qürur duyduğunu vurğulayıb.



Sərkərdənin nəvəsi Emin Aslanov babası haqqında nənəsindən, atasından və əmisindən eşitdiyi xatirələri tədbir iştirakçıları ilə bölüşüb. Prezidentin bu sərəncamının təkcə Həzi Aslanova deyil, müharibədə iştirak edən 600 mindən çox Azərbaycan övladına, müasir, müstəqil Azərbaycanın keşiyində mərdliklə dayanan güclü və qüdrətli Azərbaycan Ordusunun hər bir əsgərinə dövlət səviyyəsində göstərilən diqqət və qayğının, hörmət və ehtiramın bariz nümunəsi olduğunu deyib. O, dövlətimizin başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə Aslanovlar ailəsinin minnətdarlığını bildirib.

Hərbi birliyin komandanlığı adından çıxış edən zabit Rasim Manafov kinofilmlər həftəsinin, həmçinin tədbirlər planında nəzərdə tutulmuş digər tədbirlərin də şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının, vətənpərvərlik hissinin daha da yüksəldilməsində müsbət təsir göstərəcəyinə əminliyini bildirib və tədbirin təşkilatçılarına komandanlıq adından təşəkkür edib.



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəis müavini, Əməkdar artist, hərbi vətənpərvərlik mahnılarının mahir ifaçısı zabit Cahangir Qurbanovun ifa etdiyi bəstəkar Azad Zahidin Abdulla Qurbaninin sözlərinə yazdığı Həzi Aslanova həsr olunan "Həzilər yurdu" və "Volqoqrad" mahnılarını tamaşaçılar alqışlarla qarşılayıblar.

Həzi Aslanova həsr edilən kinofilmlər həftəsinin ilk günü "Vilnüsün azad edilməsi" 1944-cü ilin cəbhə buraxılışı, Bakı Kinostudiyasının 1945-ci il istehsalı olan "General Həzi Aslanov" və "Həzi Aslanovun dəfn mərasimi" adlı sənədli film və xronikalar nümayiş etdirilib.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinə qəhrəman sərkərdə haqqında müharibə illərindən bu günə qədər çəkilən bədii və sənədli filmlərin disklər dəsti albomu və kitablar hədiyyə edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Ermənistan ordusu - özünəqəsd, xəstəlik, korrupsiya və cinayət mənbəyi

Davit Tonoyanın Ermənistan Müdafiə Nazirliyinə rəhbərlik etdiyi dövrdə hərbi hissələrdə qeyri-döyüş şəraitində ölən əsgərlərin sayının durmadan artması müşahidə olunur.

Köhnə rejim tərəfindən əsası qoyulan bu ənənə, yəni, "dedovşina" bu gün də davam edir. Bu da düşmən ordusunda intihar və özünəqəsd hallarının getdikcə çoxalmasına gətirib çıxarır.

Ermənistanın baş naziri Nikol Paşinyanla "Qarabağ" klanı arasında getdikcə dərinləşən qarşıdurma erməni ordusunu tamamilə məhvə sürükləyir.

Yanvarın 24-də düşmən tərəfindən işğal altında olan ərazilərimizdə erməni əsgərlər arasında baş vermiş silahlı qarşıdurma, əminliklə demək olar ki, sonuncu olmayacaq.

Son vaxtlar Ermənistan ordusunda əsgərlərin bir-birini odlu silahla qətlə yetirməsi halları tez-tez baş verir. Bütün bunlar xalqdan gizlədilir, ölənlərin və intihar edənlərin sayı barədə dəqiq məlumat verilmir.

Xüsusilə də Ermənistan Müdafiə Nazirliyi əsgərlər arasında baş vermiş silahlı qarşıdurmanı qəza hadisəsi kimi təqdim edərək don geyindirməyə çalışır. Həmçinin əsgərlərdən birinin digərinə atəş açması nəticəsində baş verən ölüm və ağır yaralanma hallarını ört-basdır etməyə çalışan Ermənistanın Müdafiə Nazirliyi əsgər ölümünün guya atəşkəsin pozulması nəticəsində baş verdiyi barədə məlumat yayaraq ictimaiyyəti aldadır. Bütün bunlar Ermənistan ordusundakı intizamsızlıq və özbaşınalıqdan xəbər verir.

Düşmən ordusunda baş verən ölüm hallarına görə bu vaxta qədər heç kəs cəzalandırılmayıb. Eyni zamanda, bunun kökündə işğalçı ölkənin ordusunda əsgər-komandir inamsızlığı, etimadsızlığı və nizamnamədənkənar halların baş verməsi, əsgərlərin yüksək rütbəli zabitlər tərəfindən qul kimi işlədilməsi dayanır. Ona görə də Ermənistanda yerli əhali övladlarını kütləvi surətdə hərbi xidmətdən yayındırmağa çalışır.

Valideynlər tərəfindən daxil olan şikayətlərin əksəriyyətini komandirlərin sıravi heyət üzərində zorakılıq hallarının olması, əsgərlərin alçaldılması və döyülməsi faktları təşkil edir. Bu səbəbdən də valideynlər bütün vasitələrlə övladlarını hərbi xidmətdən yayındırır, müxtəlif bəhanələrlə ölkədən çıxarırlar. Statistik məlumatlar da təsdiqləyir ki, son illər ölkəni tərk edənlər arasında gənclər daha çoxdur. Onların əksəriyyəti hərbi xidmətdən açıq şəkildə imtina edir.

Davit Tonoyanın quruma rəhbərliyindən sonra Ermənistan ordusunda heç nə dəyişməyib. Əksinə, vəziyyət getdikcə pisləşib. Hətta gənc əsgərlərin özünəqəsd hallarının əksəriyyəti Davit Tonoyanın Müdafiə Nazirliyinə rəhbərliyindən sonra baş verdiyini qeyd etmək olar.

Ordudakı özbaşınalıq, mütəmmalı əsgər ölümləri Ermənistanda ictimai-siyasi vəziyyəti getdikcə gərginləşdirir. Artıq işğalçı ölkədə etiraz aksiyaları baş qaldırır. Valideynlər bildirirlər ki, Paşinyan bu barədə dərindən düşünməli, orduda nizam-intizam yaratmalı, quldurluq hallarına son qoymalıdır. Bu isə mümkün deyil.

Son olaraq onu qeyd edək ki, bu ilin yanvar ayı üçün artıq Ermənistan ordusunda 5 nəfər hərbçi ölmüş, 10 nəfərədək hərbi qulluqçu isə yaralanmışdır. Bu statistik rəqəmlər bir daha Ermənistan ordusundakı acınacaqlı vəziyyəti üzə çıxarır.

**Ehtiram AŞIRLI,**
**siyasi analitik**

# Cəbhəyanı bölgələrdə də Həzi Aslanovun xatirəsi yad edilib

*İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun əbədiyyətə qovuşduğu vaxtdan 75 il ötür. Yaşasaydı 110 yaşında idi. Lakin qəhrəman həmyerlimiz qədirbilən xalqımızın yaddaşında 35 yaşlı mübariz bir döyüşçü, yenilməz sərkərdə kimi yaşayır və bundan sonra da yaşayacaqdır.*



Beyləqan rayonunun İkinci Şahsevən kəndində, "Həzi Aslanov Xatirə bağı"nda Müdafiə Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbirdə qəhrəmanın xatirəsi ehtiramla yad edilib.

Hərbi orkestrin ifa etdiyi "Rekviyem"in sədaları altında hərbi qulluqçular, veteranlar, ictimaiyyət nümayəndələri, gənclər, Həzi Aslanovun və şəhidlərin ailə üzvləri



ölməz generalın abidəsi və şəhidlərin xatirə lövhəsi önünə qızılgüllər, qərənfillər düzüblər. Ulu öndər Heydər Əliyevin, Həzi Aslanovun timsalında Böyük Vətən müharibəsi illərində faşizmə qarşı müharibədə həlak olan və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalan Vətənin igid övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Azərbaycan Respublikası Prezidentinin "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" 29 dekabr 2019-cu il tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası ilə bağlı yaradılan Təşkilat komitəsinin üzvü, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani tədbir iştirakçılarını salamlayaraq nəzərə çatdırıb ki, artıq respublikamızda Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Təhsil və Mədəniyyət nazirlikləri ilə birlikdə silsilə tədbirlər keçirilməkdədir. Tədbirlər ilboyu davam etdiriləcəkdir.

Azərbaycan Prezidenti İlham Əliyevin bu Sərəncamının əhəmiyyətindən danışan A.Qurbani nəzərə çatdırıb ki, işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan Azərbaycan Ordusunun şəxsi heyətinin, eləcə də gənc nəslin ata-babalarımızın, əcdadlarımızın qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsi qarşımızda duran əsas vəzifələrdəndir və bu iş dövlətimizin başçısının və Müdafiə Nazirliyi rəhbərliyinin daim diqqət mərkəzindədir. Məhz Prezidentin növbəti Sərəncamı da mühüm əhəmiyyət kəsb edir, xalqımız və Vətən müdafiəçiləri tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

General-mayor Mayis Bərxudarov cəbhəyanı bölgələrdə də "Həzi Aslanovun 110 illiyinin qeyd edilməsi haqqında" Prezident Sərəncamından irəli gələn vəzifələrin uğurla həyata keçirildiyini bildirib. Bir neçə gün öncə Horadiz qəsəbəsində təşkil olunan tədbirdə ön səngərlərdən gələn döyüşçülərlə yerli əhalinin unudulmaz sərkərdənin doğum gününü birlikdə qeyd etməsini ordu ilə xalqın sağlam mənəvi birliyinin təcəssümü kimi qiymətləndirib.

Xocavənd rayon İcra Hakimiyyətinin başçısı, Qarabağ müharibəsinin veteranı Eyvaz Hüseynov, Beyləqan rayon İcra Hakimiyyəti başçısının birinci müavini Telman Məstanov, el ağsaqqalı Şükür baba və şəhid atası Ələkbər Hüseynov hərbçilərin bu təşəbbüsünü yüksək qiymətləndiriblər.

Həzi Aslanovun nəvəsi Emin Aslanov çıxış edərək göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə, eləcə də yubiley tədbirlərini yüksək səviyyədə təşkil etdiyinə görə Müdafiə Nazirliyinin rəhbərliyinə, hərbi hissənin komandanlığına Aslanovlar ailəsinin minnətdarlığını çatdırıb.

Füzuli Dövlət Dram Teatrının aktyoru Qaçaq Qarayevin general Həzi Aslanovun qiyafəsində gəlişi, şəhid analarına və Lələtəpə fatehlərinə - igid tankçılara müraciəti tədbir iştirakçılarında qürurlu anlar yaşadıb: - "Şəhid anaları, başınızı dik tutun! Mənim anam da müharibədə iki oğul qurban verib. Mənim anam "Vətən sağ olsun!" deyərək ömrünün sonuna qədər el içində başıuca dolanıb. Övladları ilə fəxr edib. Anam inanırdı ki, gələcək nəsillər onun övladlarının da xatirəsini həmişə əziz tutacaq, qəhrəmanlıqlarını unutmayacaqlar.

Azərbaycan Ordusunun mətin döyüşçüləri, Aprel döyüşlərinin qəhrəmanları, tankçı dostlarım, uğurlarınızı eşidib mənim ruhum da şad olub. Mən Vətəndən uzaqlarda, Rusiya, Ukrayna, Belarusiya və Pribaltikada döyüşlərdə Azərbaycan oğlunun hansı mənəvi və iradi keyfiyyətlərə malik olduğunu bütün dünyaya göstərdim. İndi növbə sizindir. Torpaqlarımızı mənfur düşməndən azad etməyə hər an hazır olun! Xalqımızı yeni qələbə müjdələri ilə sevindirəcəyinizə inanıram. Qarabağ sizi gözləyir, Vətən əsgəri! Növbə sizindir, uğur olsun, dostlar!"



Döyüşlərdə və Azərbaycan Ordusu şəxsi heyətinin vətənpərvərlik tərbiyəsi işində fərqlənən bir qrup hərbi qulluqçu və mülki şəxsə Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi "Həzi Aslanov" yubiley medalı, H.Aslanovun həyat və qəhrəmanlıq yolunu əks etdirən kitablar, bədii və sənədli filmlərin disklər dəsti albomu təqdim edilib.

İkinci Şahsevən kənd tam orta məktəbinin şagirdlərinin ifasında "Qəhrəmanlar ölmürlər" adlı ədəbi kompozisiya tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

"Şəhidlər bulağı"nın açılışı olub və ətrafına həmişəyaşıl ağac tingləri əkilib.

Tədbir iştirakçılarından bir qrupu 2016-cı ilin Aprelində Lələtəpə uğrunda döyüşlərdə şəhid olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ayaz Hüseynovun ailəsinə baş çəkib, Birinci Şahsevən kəndində Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun xatirə muzeyini ziyarət edərək, büstü qarşısına güllər düzüblər.

Şəhid Ayaz Hüseynovun atası, müharibə iştirakçısı Ələkbər Hüseynov minnətdarlıqla deyib: "Azərbaycan öz müstəqilliyini bərpa edənədək kəndimizdəki kollektiv təsərrüfat Həzi Aslanovun adını daşıyırdı. Bu bağ da o vaxtlar salınıb, kənd əməkçilərinin vəsaiti hesabına abidə ucaldılıb və bura vətənpərvərlik tədbirlərinin keçirildiyi məkana çevrilib. Bu bağ cəbhəyanı bölgənin keşiyində mərdliklə duran hərbi hissə komandirlərinin, əsgər və zabitlərin böyük zəhməti sayəsində yenidən qurulub. Bu təşəbbüs isə oğlum Ayazın Aprel döyüşləri zamanı şəhidliyindən sonra qaldırıldı. Dəfn mərasimində iştirak edən Müdafiə Nazirliyinin rəsmiləri, hərbi hissənin komandiri söz verdilər ki, burada yenidən quruculuq-abadlıq işləri aparılacaq, Həzi Aslanovun və şəhidlərimizin adına layiq yeni bir mənzərənin şahidi olacaqsınız. Mən bu gözəl məkanı yenidən bizə bəxş etdiyinə görə zəhməti olan hər kəsə kəndimizin əhalisi, xüsusilə də şəhid ailələri, müharibə veteranları adından dərin minnətdarlığımı bildirirəm".

Həmin gün cəbhəyanı bölgənin bütün hərbi hissələrində İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun anım tədbirləri keçirilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Azərbaycan dövlətçiliyinin yaranma tarixi və inkişaf mərhələləri.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**
**1. Qədim Azərbaycanda dövlətçilik ənənələri.**
**2. Orta əsrlər Azərbaycan dövlətləri haqqında.**
**3. XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi.**
**4. Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir.**

### *Qədim Azərbaycanda dövlətçilik ənənələri*

Azərbaycan xalqı qədim və zəngin dövlətçilik tarixinə malikdir və xalqımızın siyasi varlığında dövlətçilik mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalqı dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan xalqlarındandır: Azərbaycan xalqı təqribən 5 min illik dövlətçilik tarixinə malikdir. Azərbaycan ərazisində ilk dövlət qurumları və ya etnik-siyasi birliklər hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq, Urmiya gölü hövzəsində yaranıb. Burada meydana gəlmiş ən qədim Azərbaycan dövlətləri bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynayırdılar. Həmin dövrdə Azərbaycan ərazisində Dəclə və Fərat vadilərində yerləşən və dünya tarixində dərin iz qoymuş qədim Şumer, Akkad və Aşşur (Assuriya) dövlətləri, habelə, Kiçik Asiyadakı Het dövləti arasında sıx qarşılıqlı əlaqələr vardı. Güclü xarici siyasət yürüdən qədim Azərbaycan dövlətləri regionda öz qüdrətilə fərqlənən siyasi qurum kimi çıxış edirdilər. Tarixi Azərbaycan torpaqlarında yaranan dövlətçilik ənənələri inkişaf etdi, daha da yüksəldi, yeni-yeni dövlətlərin yaranmasına səbəb oldu. Bu dövlətlər vahid xalqın - Azərbaycan xalqının təşəkkülü prosesində həlledici rol oynadılar.

Bəzi ehtimallara görə, "Azərbaycan" adı bir tərəfdən bu ərazidə eradan çox-çox əvvəl yaşayan əhalinin əksəriyyətinin odla bağlılığını göstərir. "Azər" - od, atəş deməkdir. Əbədi yanar od qədim zamanlardan Azərbaycanın simvolu hesab olunub. Bu baxımdan da Azərbaycan dünyada "Odlar Yurdu" kimi tanınır. Digər ehtimallara görə isə bu ad Azərbaycan ərazisində qədim zamanlardan yaşayan türksoylu tayfaların adından götürülmüşdür. "Ər kişi", "ər oğlu", "od qoruyan" mənasını verən "Azərbaycan" bu ərazidə yaşayan qədim türkdilli qəbilənin adından əmələ gəlib.

Azərbaycan ərazisində məlum olan ilk dövlət qurumu Arattadır. Aratta ölkəsi Cənubi Azərbaycanda e.ə. III minilliyin birinci yarısında meydana gəlmiş ilk dövlət qurumu idi. Onun ərazisi Urmiya gölünün cənub və cənub-şərq sahilini əhatə edirdi.

E.ə. I minilliyin əvvəlində Cənubi Azərbaycan ərazisində Urmiya gölü hövzəsində mərkəzləşmiş dövlətin yaranması üçün şərait yaranır və yeni dövlət Manna adlanır. E.ə. VI əsrin əvvəlində qədim Azərbaycanın Manna dövləti süquta uğradı.

Bundan sonra Araz çayından şimalda və cənubda yerləşən Azərbaycan torpaqları müstəqil hakimiyyət idarəsini saxlamaqla İran Əhəmənilər sülaləsindən asılı olmuşdur.

Makedoniyalı İsgəndərin dövründə Urmiya gölü hövzəsində müstəqil padşahlıq Adərbayqan (Atropatena) dövləti idi. Tarixi mənbələrdə Adərbayqan ilə əlaqədar hadisələr e.ə. III əsrin sonuna aid qaynaqlarda yad edilir.

Azərbaycanın Araz çayından şimalda yerləşən torpaqları Albaniya adlandırıldı. Albaniya şimalda Dağıstan, qərbdə Şərqi Gürcüstan, cənub və cənub-qərbdə Adərbayqan ilə həmsərhəd idi. Albaniyanın paytaxtı əvvəl Qəbələ, sonra isə Bərdə olmuşdur. Albaniya dövləti VII əsrin sonlarına, Azərbaycan ərəblər tərəfindən işğal edilənə qədər öz müstəqilliyini qoruyub saxlaya bilmişdir.

### *Orta əsrlər Azərbaycan dövlətləri haqqında*

IX əsrin ortalarından Azərbaycanın qədim dövlətçilik ənənələri yenidən dirçəldi. Azərbaycanda yeni siyasi dirçəliş başlandı. İslam dininin yayılmış olduğu Azərbaycan torpaqlarında Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər və Şəddadilər dövlətləri yarandı. Müstəqil dövlətlərin yaranması nəticəsində siyasi, iqtisadi və mədəni həyatın bütün sahələrində oyanış baş verməkdə idi. Azərbaycan tarixinin intibah dövrü başlanırdı. 600 ilə qədər davam edən sasani və ərəb əsarətindən sonra yerli dövlətlərin (Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər) yaranması, islam dininin bütün ölkə ərazisində əsas təkallahlı dinə çevrilməsi Azərbaycan xalqının etnik təkamülündə, vahid dilin və mədəniyyətin təşəkkülündə mühüm rol oynadı. İslam dini, eyni zamanda, Azərbaycanı idarə edən ayrı-ayrı feodal sülalələrinin tez-tez bir-birini əvəz etdiyi bir tarixi şəraitdə bütün Azərbaycan əhalisinin - həm xalqımızın təşəkkülündə başlıca rol oynayan müxtəlif türk tayfalarının, həm də onlarla qaynayıb-qarışmaqda olan qeyri-türk etnoslarının yadelli qəsbkarlara qarşı vahid qüvvə halında birləşməsində də mütərəqqi rol oynadı.

Ərəb xilafətinin tənəzzülündən sonra - IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə, bütün Yaxın və Orta Şərqdə türk-islam imperiyalarının rolu artdı. Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar və başqa türk-islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın, həmçinin, bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoydular.

### *XIX əsrdə Azərbaycanın Rusiya tərəfindən işğalı ərəfəsində Azərbaycan dövlətçiliyi*

XVIII əsrin ikinci yarısında mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edən feodallar arasında gedən müharibələr nəticəsində Azərbaycan ərazisində feodal dövlətləri - xanlıqlar meydana gəldi.

Şəki xanlığı (1743-1819) Hacı Çələbi Qurban oğlu tərəfindən yaradılmışdır. Quba, Şamaxı, Qarabağ və Gəncə xanlıqları ilə həmsərhəd olmuşdur.

Qarabağ xanlığı (1748-1822) Pənahəli xan tərəfindən əsası qoyulmuşdur. Şəki, Şamaxı, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ xanlıqları ilə həmsərhəd olmuşdur.

Quba xanlığı (1747-1810) Hüseynəli xan tərəfindən əsası qoyulmuşdur. Dərbənd, Şəki, Şamaxı və Bakı xanlıqları ilə həmsərhəd olmuşdur.

Şamaxı xanlığı (1747-1820) Məhəmməd Səid və Ağası qardaşları tərəfindən əsası qoyulmuşdur. Quba, Şəki, Qarabağ və Bakı xanlıqları ilə həmsərhəd olmuşdur.

Azərbaycanın cənub şərqində Talış dağları, Xəzər dənizi və Muğan düzü arasında əsası Seyyid Abbas tərəfindən qoyulmuş Lənkəran xanlığı (1747-1826) yerləşirdi.

Qarabağ, Naxçıvan və Maku xanlıqları, Osmanlı dövləti, Kartil-Kaxetiya çarlığı, Borçalı, Qazax sultanlıqları ilə həmsərhəd olan əsası Mir Mehdi xan tərəfindən qoyulan Ağrı vadisi, Dərələyəz və Göyçə gölü arasında İrəvan xanlığı (1747-1828) yerləşmişdir.

Zəngəzur sıra dağlarından Araz vadisinə qədər olan ərazidə Naxçıvan xanlığı (1747-1828), Murovdağ silsiləsindən Kür çayınadək Gəncə xanlığı (1747-1804) yaranmışdı. Abşeron yarımadasında Bakı xanlığı (1748-1806), Kür ilə Araz qovşağında Cavad xanlığı (1747-1796), şimalda Dərbənd xanlığı (1747-1806), Azərbaycanın cənubunda Təbriz, Ərdəbil, Xoy, Qaradağ, Sərab, Marağa, Maku, Urmiya, Zəncan, Xalxal xanlıqları yarandı.

XVIII yüzilliyin sonu-XIX yüzilliyin əvvəllərində Azərbaycanın daxili və xarici siyasi vəziyyəti çox mürəkkəb idi. Əvvəl Şəki, sonra isə Quba xanlıqlarının Azərbaycan torpaqlarını öz ətrafında birləşdirmək, vahid Azərbaycan dövləti yaratmaq cəhdləri baş tutmadı. Buna bir tərəfdən ölkənin sosial-iqtisadi geriliyi, digər tərəfdən isə xarici istilalar, İran və Rusiyanın bu yerlərə qəsbkar yürüşləri mane olurdu. Belə bir şəraitdə Azərbaycana göz dikmiş İran və Rusiyanın hərbi planlarına qarşı dura biləcək qüvvə yox idi.

Çar Rusiyası yeni torpaqlar zəbt etməyə, tutduğu yerləri Rusiya sənayesi üçün xammal mənbələrinə, satış bazarlarına çevirməyə can atırdı. 1804-1813-cü illərdə I Rusiya-İran və 1826-1828-ci illərdə II Rusiya-İran müharibəsi nəticəsində Azərbaycan rus qoşunları tərəfindən işğal edildi. Rusiya-İran müharibələri nəticəsində 12 oktyabr 1813-cü il Gülüstan sülh müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqlarından başqa bütün Azərbaycan torpaqları, 10 fevral 1828-ci il Türkmənçay müqaviləsinə əsasən isə Azərbaycanın Araz çayından şimal hissəsi Rusiya imperiyasının ərazisinə qatıldı.

### *Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir*

1918-ci il mayın 28-də öz müstəqilliyini elan edən Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı və bolşeviklərin Azərbaycana hücumu nəticəsində 1920-ci ilin aprelində süqut etdi. Lakin Azərbaycan xalqının öz dövlətini qurmaq, müstəqil olmaq uğrunda mübarizə eşqini söndürmək mümkün olmadı. 1991-ci ildə xalqımız öz sarsılmaz iradəsi və inadkarlığı sayəsində müstəqilliyinə nail oldu. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında" Konstitusiya Aktını qəbul etdi. Azərbaycan yenidən müstəqil oldu.

Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması, məhz ümummilli lider Heydər Əliyevin fəaliyyəti sayəsində mümkün olub. Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan tarixində ən yeni eranın əsasını qoyan, dövlətçiliyi yenidən bərpa edən, onun ideoloji, iqtisadi və siyasi əsaslarını formalaşdıran böyük dövlət xadimidir. Ötən əsrin 90-cı illərində 5 min illlik yaşı olan Azərbaycan dövləti parçalanmış vəziyyətdə idi. Belə olan halda, xalqın güclü idarəetmə qabiliyyətinə malik liderə ehtiyacı vardı. O, hakimiyyətə gələrək, pərakəndə halda olan dövləti inkişaf edən hüquq sisteminə çevirməyə müvəffəq oldu. Formal olaraq, müstəqil olan ölkədə dövlətçilik ənənələrini formalaşdırdı. Məlumdur ki, 90-cı illərin əvvəllərində ölkədə etnik, regional, sosial-ideoloji və separatçılığa söykənən tendensiya hökm sürürdü. Azərbaycan cəmiyyətinin daxili və mürəkkəb mikrostrukturunun təbəqələri heç də müstəqil dövləti milli sərvət kimi qəbul etmirdilər. Bu düşüncəni dəyişmək lazım idi. Ulu öndər Heydər Əliyev bunu təmin etməyi bacardı. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Heydər Əliyev siyasətinin layiqli varisi olaraq, xalqın etimadına söykənən siyasi fəaliyyəti ilə ölkəni ən qabaqcıl dövlətlər sırasına yüksəltməkdə davam edir. Məhz ümummilli lider Heydər Əliyevin xidmətləri nəticəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, qanunun aliliyinin təmin edilməsi, dilindən, dinindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb.

Hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub və onun təkmilləşdirilməsi üçün etibarlı zəmin yaradılıb. Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş demokratik dövlət quruculuğu prosesi bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarının birində dövlət başçısı cənab İlham Əliyev demişdir: "Müstəqilliyi bərpa etdikdə, biz dövlətimizi qurmalı və siyasi sistemimizi transformasiya etməli idik. Bu səbəbdən, siyasi və iqtisadi islahatlar paralel şəkildə aparılırdı. Biz aydın başa düşdük ki, təbii sərvətlər ölkənin transformasiyası və Azərbaycanın davamlı inkişafının təmin olunması üçün kifayət etməyəcək. Bu səbəbdən, siyasi islahatlar, demokratik proses və azadlıqlarla bağlı məsələlər bizim diqqət mərkəzimizdə olmuşdur. Bu gün Azərbaycanda bütün fundamental azadlıqlar - siyasi azadlıq, media azadlığı, azad internet, din azadlığı təmin edilib. Bu isə inkişafın əsası və təməli deməkdir".

Hər bir Azərbaycan vətəndaşı Azərbaycan dövlətçiliyinin tarixini bilməli və onunla fəxr etməlidir. Bu gün hər birimiz əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlətçilik amallarını, yüksək ideyalarını yaşatmaq və gələcək nəslə çatdırmaq, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə onun ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməliyik.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Şəhidlər unudulmur” layihəsi çərçivəsində növbəti tədbir Beyləqan rayonunda təşkil olunub

*Azərbaycan Respublikası Müdafiə Nazirliyinin reallaşdırdığı "Şəhidlər unudulmur" layihəsi çərçivəsində növbəti tədbir Beyləqan rayonunun İkinci Şahsevən kənd tam orta məktəbində təşkil olunub. Tədbirdə şəhid ailələrinin üzvləri, Müdafiə Nazirliyinin nümayəndələri, “N” hərbi hissəsinin əsgər və zabitləri, müəllim və şagirdlər iştirak ediblər.*



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib. Respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra 2016-cı ilin Aprel döyüşlərinin şəhidlərinə həsr olunmuş videoçarx nümayiş edilib.

“N” hərbi hissəsinin zabitləri Neymət Rəhimov və Elman Ağayev çıxış edərək, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, onların vətənpərvərliklərinin və qəhrəmanlıqlarının təbliği, məktəblilərdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi məqsədilə icra olunan "Şəhidlər unudulmur" layihəsi barədə məlumat veriblər. Bildirilib ki, layihə çərçivəsində orta ümumtəhsil məktəblərində tədbirlər keçirilir, Qarabağ müharibəsi veteranları ilə şagirdlərin görüşləri təşkil olunur, ən qabaqcıl siniflərə şəhidlərimizin adları verilir.

İkinci Şahsevən kənd tam orta məktəbinin direktoru Sevda Əliyeva çıxış edərək, şagirdlərin vətənpərvərlik ruhunda tərbiyəsi, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi baxımından "Şəhidlər unudulmur" layihəsinin əhəmiyyətini yüksək qiymətləndirib.

Şəhid atası Ələkbər Hüseynov çıxışında övladının şəhidlik zirvəsinə ucalması ilə qürur duyduğunu bildirib, şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən bu işlərə görə minnətdarlığını ifadə edib.

Sonra siniflərə İkinci Şahsevən kəndinin şəhidləri Dayandur Əliyevin, Telman Balakişiyevin, Çingiz Hüseynovun, Səlahəddin Nəcəfovun və Ayaz Hüseynovun şəkilləri təqdim edilib. Siniflərdə adları verilən şəhidlərin guşələri yaradılıb. Şəhid valideynləri şagirdlərə övladlarının məktəb illəri haqqında xatirələrini danışıblar.

Sonra məktəblilər 20 Yanvar faciəsinə həsr olunmuş kompozisiya ilə çıxış ediblər.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrində mövcud olan acınacaqlı vəziyyət, fiziki və mənəvi təzyiqlərə məruz qalma səbəbindən tərxis olunaraq xidmətdən getmək istəyən hərbi qulluqçuların sayı son vaxtlar xeyli çoxalıb.

Tərxis olunma ilə bağlı müraciət edənlərin çox olması və şəxsi heyətin çatışmazlığı səbəbindən, bu addımı atmaq istəyənləri komandanlıq müxtəlif bəhanələrlə ehtiyata buraxmaqdan imtina edərək, praktiki olaraq onları zorla hərbi hissədə saxlamağa çalışır.

Sisiyan yaşayış məntəqəsində yerləşən hərbi hissədə müqavilə əsasında xidmət edən Gevorq Balayan da bir neçə hərbi qulluqçu ilə birlikdə ordu sıralarından tərxis olunmaq üçün raportla komandanlığa müraciət edib. Lakin 4-cü ordu komandanlığı bu müraciətləri qulaqardına vuraraq, müqaviləli hərbçiləri ehtiyata buraxmaqdan imtina edir.

Hərbi qulluqçu G.Balayan sonadək mübarizə apararaq hərbi xidmətdən uzaqlaşacağını bildirib.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində müxtəlif səbəblərdən xəsarət alan əsgərlərin sayı durmadan artır.

Lakin ağır xəsarət almalarına baxmayaraq, həkimlərin və komandirlərin səhlənkarlığı səbəbindən müalicə olunmamaları da əsgər ailələrinin əlavə dərdinə çevrilib.

Hərbi hissələrdən birinin əsgəri Qor Antapyan müəmmalı şəraitdə ayağından xəsarət alıb. Bu azmış kimi Q.Antapyan həkimlərin səhlənkarlığı səbəbindən müalicə olunmur. Əsgərin valideynlərinin dəfələrlə xahiş etmələrinə baxmayaraq yaralı əsgər hərbi hospitala göndərilmir.

Hadisə ictimaiyyətdən gizlədilir və faktla bağlı heç bir araşdırma aparılmır.

* * *

Ermənistan ordusu barədə yayılan xəbərlərin monitorinqi göstərir ki, düşmənin hərbi hissələrində zabitlərin özbaşınalığı və vəzifə səlahiyyətlərindən sui-istifadə səbəbindən baş verən cinayətlərin sayı yetərincədir. Bu günlərdə işğalçı ordunun daha bir zabitinin cinayət hadisəsi ortaya çıxıb.

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birində xidmət edən zabit vəzifəsindən sui-istifadə etdiyinə görə cinayət məsuliyyətinə cəlb olunub.

Yuxarı komandanlığın tapşırığına əsasən, Drmbon briqadasında həyata keçirilən qəfil yoxlama zamanı yanacaq oğurluğu aşkar edilib. Briqadanın "zampoliti" Bareğam Ağaxanyanın verdiyi məlumata əsasən, təkcə bir bölmədə 110 litr benzin oğurluğu aşkar olunub. Oğurluq edən zabitin və digərlərinin adları və hadisənin özü ictimaiyyətdən gizlədilsə də, yoxlama davam edir.

Cinayətlə bağlı araşdırma aparılır.

**Hazırladı:
İsa ELDAROĞLU**

*Hərbi texnikalar, silahlar*

# “COUGAR” zirehli maşını



Amerikanın “Cougar” ağır zirehli maşını MRAP (Mine-Resistant Ambush Protected) sinfinə aiddir. Onun hazırlanması və istehsalı Force Protection şirkəti tərəfindən həyata keçirilib. “Cougar” zirehli maşını 4x4 və 6x6 təkər formulası ilə hazırlanıb. Maşının heyəti doqquz nəfərdən ibarətdir. Onun üç nəfəri maşının qabaq hissəsində, altı nəfəri isə fərdi oturacaqlarda arxa hissədə yerləşdirilib. Maşının bortunun hər tərəfində müşahidə pəncərəsi quraşdırılıb. Həmçinin maşına heyətin çölə çıxmadan atıcı silahdan atəş açması üçün mazğal (baca) da bərkidilib. Zirehli maşın



özünü qaynar nöqtələrdə yaxşı doğruldub. 6x6 formulalı “Cougar” zirehli maşını Britaniya qoşunlarında Mastiff təyinatını alıb və fərqləndirici cəhətlərindən biri iki kondisionerin olmasıdır ki, hansı ki, zirehli maşının daxilində və xaricində normal temperaturun saxlanılmasına kömək edir.

**Hazırladı:
Svetlana YUSUBOVA,
"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### Hindistan peyk əleyhinə silahlarını nümayiş etdirib



Hindistanda respublikanın yaranmasının 71 illiyi münasibətilə paytaxt Dehlidə hərbi parad keçirilib.

Paradda Hindistan ordusunun müxtəlif silahları nümayiş olunub.

Parad zamanı Hindistan ordusuna məxsus "Bhishma" döyüş tankı , "Ballway Machine Pikate" piyada döyüş maşını və hərbi hava qüvvələrinin "Rafale" qırıcı təyyarələri, "Chinook" və "Apache" helikopterləri diqqət çəkib.

Paradda ilk dəfə olaraq peyk əleyhinə silahlar da nümayiş olunub.

### Xorvatiyada helikopter qəzası baş verib



Xorvatiyada hərbi helikopter sınaq uçuşları həyata keçirən zaman qəzaya uğrayıb.

Qəza Zlarin adası yaxınlığında baş verib. Qəzaya uğrayan helikopterdəki hərbçilərin tapılması və xilas edilməsi üçün sahil mühafizə, həmçinin digər axtarış qrupları hadisə yerinə göndərilib.

### Reuters: Əfqanıstanda qəzaya uğrayan təyyarə ABŞ hərbi hava qüvvələrinə məxsusdur



Bazar ertəsi günü Əfqanıstanda qəzaya uğrayan təyyarə ABŞ hərbi hava qüvvələrinə məxsusdur və onun göyərtəsində on nəfərdən az insan olub.

Bu barədə Reuters agentliyi Ağ ev administrasiyasındakı mənbəyə istinadla məlumat yayıb. Bu məlumatlara əsasən, hazırda təyyarənin vurulduğuna dair sübut yoxdur. Pentaqon isə təyyarənin ABŞ hərbi hava qüvvələrinə aid olduğunu hələlik təsdiqləməyib.

"Taliban" hərəkatı təyyarə qəzasına görə məsuliyyəti öz üzərinə götürüb. Taliblər, həmçinin bəyan ediblər ki, vurulan təyyarə Amerikaya məxsusdur və həlak olanlar arasında Mərkəzi Kəşfiyyat İdarəsinin bir neçə zabiti var. Associated Press agentliyi ABŞ silahlı qüvvələrinin təyyarənin qəzaya uğramasına dair məlumatlarla bağlı təhqiqata başladığını bildirir.

Təyyarə qəzası bu gün səhər saatlarında "Taliban" hərəkatının nəzarətində olan Qəzni əyalətində baş verib. Əfqanıstan hökumətindəki mənbənin 1TVNews telekanalına verdiyi məlumata görə, o, çox böyük ehtimalla koalisiya qüvvələrinin istifadəsində olan hərbi təyyarədir.

Bundan əvvəl isə KİV-də Əfqanıstanın şərqində "Ariana Afghan Airlines" aviaşirkətinə məxsus sərnişin təyyarəsinin qəzaya uğraması barədə məlumat yayılmışdı.

### Şimali Koreya uzaqmənzilli nüvə raketi hazırlamaq niyyətindədir



Koreya Xalq Demokratik Respublikası (KXDR) uzaqmənzilli nüvə raketi hazırlamağa çalışır.

Bunu ABŞ-ın Müdafiə naziri Mark Esper deyib.

Şimali Koreyanın nüvə başlığı daşıyan raketlər istehsal etdiyi və onları sınaqdan keçirdiyi barədə danışan ABŞ rəsmisi ölkəsinin məsələni diplomatik dialoq yolu ilə həll etməyə çalışdığını bildirib.

M.Esper Şimali Koreyanı yenidən danışıqlar masasına əyləşməyə və birlikdə Koreya yarımadasının nüvəsizləşdirilməsi üçün addımlar atmağa çağırıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası adyunkturaya qəbul elan edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası 2020-ci il üçün fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə adyunkturaya qiyabi və dissertantlıq yolu ilə qəbul elan edir.

Qəbul "73 - Milli təhlükəsizlik və hərbi elmlər" elm sahəsinə aid aşağıdakı ixtisaslar üzrə elan olunur:

- Hərbi nəzəri elmlər;
- Hərbi xüsusi elmlər;
- Hərbi təbabət;
- Milli təhlükəsizlik.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə isə həkim-mütəxəssis), Silahlı Qüvvələrdə həqiqi hərbi xidmətdə olan hərbi qulluqçular və mülki işçilər müsabiqə əsasında qəbul olunurlar. Mülki ali təhsil müəssisələrini bitirən hərbi qulluqçular iki ildən az olmayaraq xidmət təcrübəsinə malik olmalıdırlar.

Elmlər doktoru proqramı üzrə adyunkturaya seçdikləri sahədə elmi və ya elmi-pedaqoji nailiyyəti olan, fundamental tədqiqatları yüksək səviyyədə aparmağa qadir və "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi (alimlik) dərəcəsi olan hərbi qulluqçular (mülki işçilər) qəbul edilirlər.

Fəlsəfə doktoru proqramı üzrə adyunkturaya qiyabi təhsil üçün qəbul olmaq istəyənlər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır), fəlsəfədən və ixtisas fənnindən ali təhsil pilləsinin magistratura səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər. Xarici dildən imtahanda iştirak etməyənlər fəlsəfə üzrə imtahana, fəlsəfə üzrə imtahanda iştirak etməyənlər isə ixtisas fənnindən imtahana buraxılmırlar.

Xarici dil üzrə imtahan Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilir. Xarici dil üzrə imtahanın məzmunu, vaxtı, imtahan nəticələrinin qiymətləndirilməsi qaydası və keçid balı Müdafiə Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Xarici dildən imtahanda keçid balını toplayan şəxslər fəlsəfədən imtahana buraxılırlar.

Xarici dil üzrə qüvvədə olan beynəlxalq dil sertifikatına (İELTS, TOEFL, TestDaF, DELF, DALF) malik olanlar xarici dil üzrə qəbul imtahanından azad olunurlar. Beynəlxalq dil sertifikatının imtahan nəticələrinin keçid balına ekvivalentliyi Müdafiə Nazirliyi ilə razılaşdırılmaqla, DİM tərəfindən müəyyənləşdirilir.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq hüququna ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis), müvafiq tədqiqat sahəsində müəyyən müvəffəqiyyətləri olan, azı iki il elmi və ya elmi-pedaqoji iş stajına malik olan və əsas iş yeri ali təhsil müəssisəsi elmi müəssisə və təşkilat olan elmi və elmi-pedaqoji kadrlar malikdirlər.

Dissertantlıq yolu ilə "Fəlsəfə doktoru" elmi dərəcəsi almaq istəyən şəxslər xarici dildən (rus dili istisna olmaqla, seçim sərbəst və ya ixtisasa uyğun olmalıdır) yuxarıda göstərilən qaydada keçirilən qəbul imtahanı verirlər.

Dissertantlıq yolu ilə "Elmlər doktoru" elmi dərəcəsi almaq hüququna "Fəlsəfə doktoru" (elmlər namizədi) elmi dərəcəsi olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan elmi-pedaqoji kadrlar malikdirlər.

Adyunkturaya qəbul olmaq üçün raportlar komanda üzrə 01.05.2020-ci il tarixinədək hərbi hissələrin komandirlərinə, hərbi-elmi (elmi-tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəislərinə verilir.

**Raporta əlavə olunur:**

- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat (fəlsəfə doktoru hazırlığı üzrə);
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış hərbi qulluqçular (mülki işçilər) üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- xidməti (iş yerindən) xasiyyətnamə;
- kadrların şəxsi-qeydiyyat vərəqi və ya arayış-məlumat;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 ölçüdə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- çap olunmuş elmi əsərlərin siyahısı (elmlər doktoru hazırlığı üzrə);
- **"Elmlər doktoru"** elmi dərəcəsi iddiaçısı üçün fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (bu diplomu xarici ölkələrdə almış hərbi qulluqçular (mülki işçilər) üçün təkrar attestasiya (nostrifikasiya) diplomu);
- dissertasiyanın açıq planı və bu plana dissertasiyanın aid olduğu sahə üzrə iki hərbi təşkilat, yaxud müvafiq ixtisas üzrə elmlər doktoru elmi dərəcəsi olan iki mütəxəssisdən alınmış yazılı rəy (elmlər doktoru hazırlığı üzrə).

Hərbi hissə komandirləri, hərbi-elmi (elmi tədqiqat) və hərbi təşkilatların, ali təhsil müəssisələrinin rəisləri adyunkturaya daxil olmaq istəyənlərin raportlarını ona əlavə olunan sənədlərlə birlikdə 01 iyun 2020-ci il tarixinədək Silahlı Qüvvələrin Hərbi Akademiyasının rəisinə göndərməlidirlər.

**Ünvan:** Bakı şəhəri, Şəfaət Mehdiyev küçəsi 136, "Qızıl Şərq" hərbi şəhərciyi, Silahlı Qüvvələrin Hərbi Akademiyası.

**Əlaqə telefonu:**
(012) 404-18-31;
(051) 863-43-54;
(055) 571-15-56.

# "Ehtiyat zabit hazırlığı kursu"na qəbul başlayır

Müdafiə Nazirliyinin hərbi hissələrinə zabitlərin həqiqi hərbi xidmətinə könüllü daxil olmaq arzusunda olan, müddətli həqiqi hərbi xidmətini başa vurmuş, ali təhsilli, 28 yaşınadək vətəndaşlar fevralın 3-dən 21-dək müvafiq sənədlərlə birlikdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində (SQ TTM) fəaliyyət göstərən qəbul komissiyasına müraciət edə bilərlər.

"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq üçün müraciət etmiş vətəndaşlar Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyası tərəfindən hərbi xidmətə yararlılıq dərəcələrinin müəyyən edilməsi məqsədilə Müdafiə Nazirliyinin Hərbi Həkim Komissiyasına göndərilirlər. Komissiyanın qərarına əsasən, hərbi xidmətə yararlı hesab edilmiş şəxslər qəbul imtahanlarına buraxılırlar.

Fiziki hazırlığı, ümumi bilik səviyyəsi, düşünmə qabiliyyəti, peşə maraqları, ünsiyyət qurmaq və qərar qəbuletmə bacarıqları, fərdi-psixoloji və digər keyfiyyətlərinin öyrənilməsi məqsədilə keçirilən imtahanları müvəffəqiyyətlə vermiş namizədlər "Ehtiyat zabit hazırlığı kursu"na qəbul edilirlər.

"Ehtiyat zabit hazırlığı kursu"nu müvəffəqiyyətlə başa vuran kursantlara leytenant hərbi rütbəsi verilməklə zabitlərin həqiqi hərbi xidmətinə qəbul olunmaları barədə bağlaşma bağlanır və ixtisaslarına uyğun vəzifələrə təyin olunurlar.

**"Ehtiyat zabit hazırlığı kursu"na qəbul olunmaq istəyən namizədlər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına müraciət edərkən aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- kursa qəbul olunmaq barədə ərizə (qəbul komissiyasının sədrinə);
- şəxsən yazılmış tərcümeyi-hal, əlyazma ilə - 1 nüsxədə və çap edilmiş - 2 nüsxədə;
- xidmət (iş və ya təhsil) yerindən xasiyyətnamə;
- ali təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- xarici dövlətlərdə təhsil almış namizədlər üçün, ali təhsil haqqında sənədin notarial qaydada tərcümə və təsdiq edilmiş surəti ilə yanaşı, həmin sənədə Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti;
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti - 1 ədəd;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda) - 1 ədəd;
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda) - 1 ədəd;
- evlər idarəsindən və ya yerli icra hakimiyyəti orqanlarından ailə tərkibi və yaşayış yeri haqqında arayış - 1 ədəd;
- 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, anfas, 2 ədəd 3x4 sm və 2 ədəd 4.5x6 sm ölçüdə);
- psixiatrik, nevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərindən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar;
- qeydiyyatda olduğu poliklinikadan sağlamlıq haqqında arayış;
- qeydiyyatda olduğu poliklinikadan son 5 (beş) ildə infeksion xəstəliklərlə bağlı müraciət edib-etməməsi haqqında arayış;
- hərbi biletin surəti (notarial qaydada təsdiq olunmuş) - 1 ədəd.

**Qeyd:** Məhkumluğu olan hərbi vəzifəlilərin "Ehtiyat zabit hazırlığı kursu"na qəbul üçün müraciət etməmələri xahiş olunur.

**Ünvan:** Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 76, "Qızıl Şərq" hərbi şəhərciyi (Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Təlim və Tədris Mərkəzi).

**Telefon:** (012) 538-85-62.

**Müraciət etmə vaxtı:** 2020-ci il fevralın 3-dən 21-dək hər gün (bazar günü istisna olmaqla) saat 09.00-dan 17.00-dək.

# İdman

## İrina Zaretska Karate 1 Premyer Liqa turnirində qızıl medal qazanıb



Parisdə start götürən Karate 1 Premyer Liqa turnirində İrina Zaretska qızıl medal qazanıb.

Azərbaycan təmsilçisi norveçli Endrin Hilton, serbiyalı Andriana Vasoviç, çinli Qonq Li və yaponiyalı Kayo Someyanı məğlub edərək finala yüksəlib. Həlledici görüşdə misirli Feryal Abdelazezi məğlub edən İ.Zaretska Karate 1Premyer Liqa turnirinin qalibi olub.

Qeyd edək ki, karateçimiz Rafiz Həsənov (67 kq) yarışda bürünc medal qazanıb.

## Şahmatçılarımız "Masters" turnirinin növbəti turunu qələbə ilə başa vurublar



Yanvarın 27-də Cəbəllütariqdə təşkil olunmuş beynəlxalq şahmat festivalının "Masters" turnirinin yeddinci turunu şahmatçılarımız qələbə ilə başa vurublar.

Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov növbəti turda ukraynalı Anna Muzıçuk, Vasif Durarbəyli Argentina təmsilçisi Ernesto Real De Azuaya qalib gəliblər.

Əvvəlki turların nəticəsinə görə Ş.Məmmədyarov 5, V.Durarbəyli 4,5 xal toplayıb.

## Karateçilər Rafael Ağayev və İrina Zaretska növbəti dəfə dünyanın ən yaxşı döyüşçüləri arasında yer alıblar



Karateçilər Rafael Ağayev (-75 kq) və İrina Zaretska (-68 kq) ötən mövsümün nəticələrinə əsasən "Grand Winners" mükafatı ilə təltif olunublar.

Azərbaycan Milli Karate Federasiyasının media və ictimaiyyətlə işlər katibi Sənan Məhərrəmov bildirib ki, bununla da Azərbaycan karateçiləri növbəti dəfə dünyanın ən yaxşı döyüşçüləri arasında yer alıblar.

Dünya Karate Federasiyasının illik yekunlarına əsasən təsis etdiyi nüfuzlu mükafat hər çəki dərəcəsində ən yüksək nəticə göstərən idmançılara təqdim olunur. İdmançılara mükafatları federasiyanın prezidenti Antonio Espinos və Karate1 Premyer Liqa turnirinin Paris mərhələsinin təşkilatçısı, Fransa Karate Federasiyasının prezidenti Fransis Didye təqdim edib.

## Azərbaycanlı Tofiq Musayev 2019-cu ildə MDB-də 10 ən güclü MMA döyüşçüsündən biri sayılıb



"TurStat" idman və turizm portalı son ildə MDB məkanında ən yaxşı MMA döyüşçülərinin reytinqini təqdim edib. Reytinqdə MMA döyüşçülərinin çəki dərəcələri nəzərə alınmayıb.

"TurStat"ın məlumatına görə, qarışıq döyüş sənəti və ya MMA son illər MDB məkanında ən populyar idman növlərindən birinə çevrilir. İdmanın bu növünün auditoriyası genişlənərək on milyonlara azarkeşə çatıb.

2019-cu ildə MDB ölkələrində qarışıq döyüş sənəti üzrə 10 ən güclü idmançı sırasına Həbib Nurmaqomedov, Fyodor Yemelyanenko, Pyotr Yan, Albert Tumenov, Zabit Maqomedşaripov və Maqomed İsmayılov (Rusiya), Mahmud Muradov (Özbəkistan), Andrey Arlovski (Belarus), Jalqas Jumaqulov (Qazaxıstan), Tofiq Musayev (Azərbaycan) və Loyk Rəcəbov (Tacikistan) daxil olublar.

Tofiq Musayev 2019-cu il dekabrın 31-də RIZIN Qran-Prisində qalib gəlib.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenantlar Məmmədov Rövşən Əzim oğluna və Zamanov Cəlal Zahid oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 29
Nüsxə 3900